Ədalət 2019.- 21 sentyabr.- S.15.



VAQİF YUSİFLİ

# AĞAMİR CAVADIN "EŞQ YOLU"

**Ağamir Cavad-qırx ilə yaxındır ki, şeir yazır, orta məktəb illərindən başlayıb bu təşnəlik və illər keçdikcə hiss edib ki, şeirin, sözün yaxşı mənada əsarətindən qurtulmaq mümkün deyil, o, şeirə əsir olub və bu əsirlik onun ürəyincədir. "Ömrün eşq yolu" kitabında Ağamirin bir şair kimi yetkinləşdiyinin şahidi oluruq.**

Kitabdakı şeirlərin mövizusu müxtəlifdir. Təbii ki, şair üçün nədən yazmağın bir elə önəmi yox..amma necə yazmaq, fikir və duyğularını poeziya dili ilə ifadə etmək əsas məsələdir.Kitabdakı birinci şeir Azərbaycan bayrağına həsr olunub. Bu mövzuda şeirlərə artıq vərdiş edirik. Dövlətimizin, məmləkətimizin, düynənimizin və bu günümüzün gerçəkliyində müqəddəs Azərbaycan bayrağı bizim inamımız, milli varlığımızın simvoludur.

Tanrı yurd ayırıbdr bizə cənnət bağından,
Burda məskən salmışıq zamanın sübh çağından.
Nuhun gəmisi durub baxır Ağrı dağından,
Sənin adınela başlar tarixin ilk varağı,
Azərbaycan bayrağı.

Yurdun hər qalasında şah babalar baş qoyub,
Gələcək nəsillərə əbədi yaddaş qoyub.
Ana vətən yolunda qılıfnc çalıb, baş qoyub,
Qanımızla suvardıq bu müqəddəs torpağı,
Azərbaycan bayrağı.

İgidlər haqq yolunda qurban eyləyir canın,
Çəkirik ağırlığın hər saatın, hər anın.
Müntəzirik əmrinə Ali Baş Komandanın,
Tətikdə hazır qalıb tüfəngimin çaxmağı,
Azərbaycan bayrağı.

Ağamir Cavad obrazlarla, hər hansı əşya, predmeti mənalandırmaq yolu ilə şeirlərini təqdim edir. Birinci sırada Eşq obrazı gəltr.Onun şeirlərində bu obraz iki aspektdə diqqəti cəlb edir. Eşq dünyaya, kainata, həyata sevgi deməkdir, iki nəfərin subyektiv hisslərindən qat-qat geniş məna kəsb edir. "İnsana dəyər verən, Ən ali qiymətdi eşq. Tanrının süfrəsində Ən zəngin sərvətdi eşq. Odur quran,yaradan, Ən qısa, ən uzun an. Kainatı fırladan Ən kamil qüdrətdi eşq". Məhz buna görə də:

**Ürəyim odla dolub,**
**İmanım kamil olub**
**İlhamı şaqdan alıb**
**Yazıram eşq kitabı.**

Bir də var sevənlərin eşqi.

**Sən mənim xatirimdə**
**Mələk kimi qalmısan.**
**Sinəm altda döyünən**
**Ürək kimi qalmısan.**

**Eşq səmasında uçan,**
**Çöhrəsi işıq saçan,**
**Könül bağında açan**
**Çiçək kimi qalmısan.**

Əlbəttə, min ildir şairlərimiz sevci dastanını yazıb sevənlərin könül dünyasına varid olurlar.Sevgi şeirləri ürək hərarəti və qanıyla yazılan gündəliklər deyilmsi?

**Vüsal gözləməkdən səbri daralmış,**
**Qızıl saçlarımı qırov, qar almış.**
**Şəsrətli anlarda düşüb saralmış**
**Ürək varağımı iki damla nəm,**
**Mən sənin məhəbbət gündəliyinəm.**

Yol və İşıq obrazları da Ağamirin şeirlərində özünəməxsus deyimlərlə diqqəti cəlb edir. "Ömür yoldu; nə az, nə çox Kamanından çıxan bir ox. Yəhəri yox, yüyəni yox, Atını çapır fələk".

Şeirlərindən hiss olunur ki, Ağamir gerçəkliklə, həyatda baş verən havdisələrlə sıx ünsiyyətdədir. Məsələn, Lənkəranda mədəniyyət və istirahət parkında söküntü işləri onu bərk həyəcanlandırır. Guya təzəlik yaradırlar. Amma:

Söküldü çəkdirdiyimiz xatirə şəkilləri.
Söküldü ulduzlara yol çəkən
baxışlarımızın izi.
Söküldü qarşımızdan ötən insan dənizi.
Söküldü görüş yerlərindəki həyəcanlı anlar
Qısqanc qısırlar qisas aldılır
aşiqlərin toplaşdığı bu məhəbbət bağından.

Ağamir Cavad yaradıcılığının lar başlanğıcından qoşmaya, gəraylıya meyl edib və həyat, zəmanə, dünya, sevgi haqqında fikir və duyğularını bu şeir şəkillərində ifadə edib.Onun qoşma və gəraylıları öz təzəliyi ilə seçilir. Ağamir xalq şeirinin-aşıq poeziyasının forma əlamətlərinə sadiq qalmaqla, məzmun baxımından bu dövrün həqiqətlərini qələmə alır.

**Payız gəlir, ötür köçün,**
**Aylar, illər vaxtı biçir.**
**Ömrü-cünü yazmaq üçün**
**Durna, mənə lələk göndər.**

**Ürəyində eşqə iman,**
**Haqsızlığa yoxdu güman.**
**Qoy ələnsin yaxşı-yaman,**
**Fələk, mənə ələk göndər.**

**Var ümidim yerə, göyə,**
**Bu dünyanı dəyişməyə.**
**Zəmanəylə döyüşməyə,**
**İblis, mənə kələk göndər.**

**Ömrün daşın düz çəkirəm,**
**Haqq yolunda müntəzirəm.**
**İllərdir ki, dost gəzirəm,**
**Allah, mənə mələk göndər.**

Ağamir Cavad çoxdandlı qəzəl də yazır. Və onun qəzəlləri ritm, ahəng, melodik baxımdan heç bir qüsur doğurmur.

Hiss olunur ki, Ağamir əruzun qaydalarına az-çox bələddir. Onun bir qəzəlindən söz açmaq istərdim. "Bu gür xoşdur" qəzəlinin hər misrasında daxili qafiyələrlə sıralanır.

Gördüm o gözəl canı daddım o şirin annı,
Yox zərrəcə nöqsanı, sərvət bu cür xoşdur.
Bu sevda yaşar, bitməzh, ömrüm puç olub getməz,
Heç kimsəyə meyl etməzh, ismət bu cür xoşdur.
Çəkdi dağa hər ahı, varmı elə bir ahu?
Sandı məni Allahı, nisbət bu cür xoşdur.

Varmı elə bir surət, hər kəlməsi bir ibrət?
Səcdəm olubdu adət, adət bu cür xoşdur.

Göstərdi üzün afət, nur saçdı mələksurət,
Qoynu nə gözəl cənnət, cənnət bu cür xoşdur.

O ki qaldı Ağamir Cavadın "Poemalar" adı ilə təqdim etdiyi yazılara burada tgərək həqiqəti söyləyəm. "Dünya kef çəkir" -bu yazını janrına görə poema adlandırmaq olmaz. Uzun şeirdir. "Kişilər ağlamasın" da poema deyil, sadəcə, bir mətləbin yozumu və izahıdır.Amma adını çəkdiyim hər iki yazıda Ağamirin şeiriyyətində qüsur tapa bilməzsiniz. Tədqiqatçı-alim, şair Mirohaşım Talışlıya həsr olunan "Həqiqət yolunun müsafiri"ni kiçik poema adlandırmaq olar.

**Cahanda hərə bir eşq yolu seçdi,**
**Eşqin hikmətini Füzuli dərdi.**
**Dünyanın qəmini eşqinlə biçdin,**
**Qəlbində yurd saldı Füzuli dərdi.**

Doğrudan da, rəhmətlik Mirhaşım müəllim Cənub bölgəsində Füzuli yaradıcılığını təbliğ edən və özü də gözəl qəzəlləri ilə seçilən bir ziyalı-alimnüma şair idi.

Müasir Azərbaycan poeziyasında Sonet çələnginin ilk yaradıcısı mərhum şair Şəkər Aslan olubdur.Bundan sonra o bölgədə sonet çələngi dəbə düşübdür. Balayar Sadiq, Ağamir Cavad, Elşad Səfərli, Tərlan Əbilov və s. müəlliflər bu çətin başa gələn çələngi hörməyə başlayıblar. Ağamir Cavadın "Ömrün eşq yolu" sonet çələngini biz Ağamir Cavadın poetik uğuru hesab edirik. Təkcə texniki baxımdan deyil, məzmunca dolğunluğu ilə seçilir.

**Ağamir Cavada-altmış yaşının astanasına gəlib çatmış bu şairə uğurlar arzulayıram. Amma gələcək şeir kitablarında Ömrün eşq yolu-Poeziya yolu tükənməsin...**